

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 yanvar 2025-ci il №1 (2910) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



Əziz həmvətənlər.

2024-cü ili uğurla başa vururuq. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapmışdır. Ölkəmiz inamla inkişaf etmişdir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Ölkə iqtisadiyyatında müşbət inkişaf var, hərbi gücümüz artıb. Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır.

Bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. Azərbaycan isə sülh, əmin-amanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əmin-amanlıq əbədi olacaqdır.

2024-cü ildə bir çox önəmli hadisələr baş vermişdir. Onların arasında ən vacib məsələ Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal altına düşmüş dörd kəndinin işğaldan azad edilməsi idi. Bu kəndlər haqqında biz heç vaxt öz mövqeyimizdən bir addım belə geri atmamışdıq. Bu kəndləri biz heç vaxt unutmamışdıq. Sadəcə olaraq, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasının öz məntiqi var idi. Hər şeyi, bütün məsələləri biz inamla və ardıcıllıqla həll etdik. Birinci mərhələdə Qarabağın və Şərqi Zəngəzurun böyük hissəsini 2020-ci ildə Vətən müharibəsində işğalçılardan azad etdik. İşğal altında qalan hissə keçən il antiterror əməliyyatı nəticəsində işğalçılardan azad edildi və Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Biz bu il Qazax rayonunun dörd kəndini geri aldıq, bir güllə atılmadan, siyasi yollarla. Amma o da həqiqətdir ki, əgər son dörd ilin Azərbaycan-Ermənistan münasibətlərində baş vermiş hadisələr baş verməsəydi, əlbəttə, Ermənistan heç vaxt öz xoşu ilə bu kəndləri bizə qaytarmazdı. Onlar məcburiyyət qarşısında bunu etdilər, bizim siyasi, hərbi gücümüzü dərk edərək buna getdilər və mən ümid edirəm ki, bundan sonra da Ermənistan öz siyasətində Cənubi Qafqazda və eyni zamanda, dünyada yaradılmış yeni reallıqları nəzərə alacaq. Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib.

Ona görə Ermənistanın genişmiqyaslı silahlanma kampaniyası hesab edirəm ki, bölgə üçün növbəti təhdid mənbəyidir. Əgər bu il bizim üçün ən narahatedici məqamı qeyd etsək, təbii ki, bu, Ermənistanın silahlanmasıdır. Bunun heç bir məntiqi izahatı yoxdur. Ermənistan öz işğalçılıq siyasətində tamamilə iflasla üz-üzə qalmışdır. 2020-ci və ondan sonra 2023-cü illərdəki hərbi məğlubiyyətləri onlara düz yol göstərməli idi. Biz də buna çalışırdıq və bu gün də öz səylərimizi davam etdiririk. Mən dəfələrlə həm rəsmi bəyanatlarımda, həm Ermənistan tərəfi ilə apardığımız danışıqlar əsnasında onlara xəbərdarlıq etmişəm ki, bu təhlükəli yoldan çəkinsinlər. Onları təhrik edən və bu gün yenə də Azərbaycan üzərinə hücum etməyə vadar edən xarici dairələr, xarici ölkələr onların arxasında durmayacaq, sadəcə olaraq, dura bilməyəcək. Bizimlə bu bölgədə hərbi müstəvidə heç bir güvvə rəqabət apara bilməz. Ona görə bir daha deyirəm, hələ ki, gec deyil, bu təhlükəli yoldan geri qayıtsınlar. Cənubi Qafqaz sülh, əmin-amanlıq, əməkdaşlıq bölgəsi olmalıdır. Ermənistanın genişmiqyaslı və sürətli silahlanması, öldürücü silahların tədarükü bu sülhü, mümkün olan sülhü poza bilər. Bir şeyi də qeyd etməliyəm, Azərbaycan, sadəcə olaraq, bu məsələ ilə bağlı tamaşaçı rolunda olmayacaq. Otuzillik işğal, dağıntılar, Qarabağın, Şərqi Zəngəzurun viran qoyulması, Xocalı soyqırımı, bir milyon insanımızın Ermənistanın ucbatından qaçqın, köçkün vəziyyətində yaşaması bizim xatirimizdən heç vaxt silinməyəcək. Biz bunu heç vaxt unutmayacağıq. Ermənistanın işğalçılıq siyasəti və mahiyyəti daim nəzərə alınmalıdır. Ona görə bir daha özümə borc bilib Ermənistan rəhbərliyinə növbəti xəbərdarlıq edirəm ki, bu təhlükəli yoldan çəkinsinlər. Bir də ki, bizimlə hərbi və istənilən sahədə rəqabət aparmaq onların iqtidarında deyil.

Ermənistanın kütləvi surətdə silahlanmasını nəzərə alaraq, biz gələn ilin hərbi büdcəmizi əhəmiyyətli dərəcədə artırmışıq. Bu, rekord həddə çatıb - 8,4 milyard manat səviyyəsinə qalxıb. Yenə də deyirəm, biz məcbur qalıb bunu bu səviyyəyə qaldırmışıq. Çünki Cənubi Qafqazda Ermənistanın başlatdığı silahlanma yarışında biz geridə qala bilmərik. Ancaq əgər bu silahlanma yarışı olmasaydı, həmin bu pulun ən azı, ən azı yarısı digər sahələrə istiqamətləndiriləcəkdi - Qarabağın, Şərqi Zəngəzurun bərpa edilməsinə, vətəndaşlarımızın sosial problemlərinin həllinə. Sadəcə olaraq, müqayisə üçün deyim. Hərbi xərclərimiz 8,4 milyard manat olacaq. Qarabağa və Şərqi Zəngəzura isə gələn il biz 4 milyard manat ayırırıq. Bunun tam əksi ola bilərdi. Sadəcə olaraq, Ermənistan və onun arxasında duran və onlara pis məsləhətlər verən ölkələr buna imkan vermir.

Bununla belə, Qarabağın və Şərqi Zəngəzurun bərpası uğurla gedir. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır.

Əlbəttə ki, bütün bu işləri görmək üçün iqtisadiyyatımız inkişaf etməlidir. Burada da yaxşı nəticələr var. Bu il ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Biz öz valyuta ehtiyatlarımızı artırmışıq və hazırda 72 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Eyni zamanda, xarici borcumuzu da azaltmışıq və bu gün Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır. Yəni, başqa sözlə desək, bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. İndi əgər bu rəqəmlərə yaxın olan rəqəm hər hansı bir inkişaf etmiş ölkədə varsa, onu mənə göstərsinlər. Bütün bu işləri görməklə yanaşı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, hərbi gücümüzün artırılması, sosial layihələrin icra edilməsi ilə yanaşı, biz bax, bu önəmli makroiqtisadi rəqəmləri əldə etmişik. Həm borcumuzu azaltmışıq, həm ehtiyatlarımızı artırmışıq və bu, imkan verir ki, biz geniş sosial proqramlar icra edək. Deyə bilərəm ki, 2019-cu ildən bu yana dörd sosial paket layihəsi, proqramı icra edilmişdir. Gələn il beşinci paket icra ediləcək. Bu layihələrə ayrılan və ayrılacaq vəsait 7,5 milyard manat olacaq.

Sosial sahəyə gəldikdə, onu da bildirməliyəm ki, 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılacaq. Artım təxminən 14-15 faizdir. Yəni, yenə də bütün bu böyük investisiya, sərmayə qoyuluşu layihələrinin icrasına baxmayaraq, sosial sahə, insanların güzəranı, insanların sosial müdafiəsi daim diqqət mərkəzində olacaqdır.

Bu il Azərbaycanda COP29 iqlim konfransı keçirildi. Deyə bilərəm ki, bu, bizim müstəqillik tariximizdə ən böyük beynəlxalq tədbirdir və hesab edirəm ki, dünya müstəvisində ən böyük və mötəbər beynəlxalq konfransdır. Cəmi on bir ay ərzində biz bu böyük tədbiri uğurla keçirdik. Qeydiyyatdan keçmiş 76 min iştirakçı öz gözləri ilə Azərbaycanın potensialını bir daha gördü. 197 ölkə, 80 dövlət və hökumət başçısı və vitse-prezident iştirak edib. Bu, bir daha göstərir ki, COP29-u Azərbaycana qarşı istifadə etmək istəyən bəzi Qərb ölkələrinin, onların nəzarətində olan dırnaqarası qeyri-hökumət təşkilatlarının və saxta media orqanlarının - onların bütün səyləri əbəs oldu on bir ay ərzində. Bu, hələ də davam edir. COP-dan sonra da artıq iki aya yaxındır davam edir, bizə qarşı şər, böhtan, yalan, iftira, uydurma kampaniyası aparılır - Azərbaycanı qaralamaq, Azərbaycanın imicinə zərbə vurmaq. Onun arxasında duran ölkələrin adlarını mən heç çəkmək də istəmirəm. Azərbaycan xalqı o ölkələri yaxşı tanıyır. Qeyri-hökumət təşkilatları hansı mənbədən vəsait alır, hansı paytaxtdan göstəriş alır, onu da Azərbaycan xalqı yaxşı bilir. Ümid edirəm ki, gələn ilin yanvarın sonlarından başlayaraq artıq Azərbaycana qarşı bu diskriminasiya və ayrı-seçkilik, şər, böhtan siyasətinə son qoyulacaq. Hər halda, ümidlər böyükdür.

Bu il Azərbaycan xalqı bir daha mənə böyük etimad göstərmişdir. Prezident seçkilərində mənə göstərilən dəstək məni daha da ruhlandırır, daha da gücləndirir. Daha da çox məni əmin edir ki, biz düzgün yolla irəliyə gedirik və bundan sonra da mən bu yüksək etimadı doğruldacağam. Hesab edirəm ki, Azərbaycan xalqında bu məsələ ilə bağlı hər hansı bir şübhə yoxdur. Azərbaycan 21 ildir inamla, uğurla, ləyaqətlə inkişaf edir. Bu illər ərzində çətinliklər də olub, sınaq məqamları da olub, müharibələr olub, bizə qarşı əsassız ittihamlar olub. Amma heç biri, heç biri bizi yolumuzdan döndərə bilmədi. Biz ərazi bütövlüyümüzü də bərpa etdik, dünya güclərinin istəklərinə rəğmən, dövlət suverenliyimizi də bərpa etdik, yenə də böyük dövlətlərin iradəsinə zidd olaraq. Ölkəmizi də inamla idarə edirik. Bizim ayağımıza dolaşmaq istəyənlər isə növbəti dəfə iflasa uğrayacaq.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə ürəkdən təbrik edirəm. Əziz xalqıma cansağlığı, firavanlıq, xoşbəxtlik, səadət arzulayıram.

Bayramınız mübarək olsun!

# Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj heyətinin ailə üzvləri və sağ qalan təyyarə bələdçiləri ilə görüşüb



Yanvarın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus Bakı-Qrozni reysini yerinə yetirərkən qəzaya uğramış "Embraer 190" tipli sərnişin təyyarəsinin həlak olan ekipaj heyətinin ailə üzvləri və qəza zamanı sağ qalan təyyarə bələdçiləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** deyib:

- Dekabrın 25-də Bakı-Qrozni marşrutu ilə uçan AZAL-a məxsus sərnişin təyyarəsi Qrozni şəhərinin yaxınlığında kənar müdaxilə nəticəsində idarəetməni itirib, zədələnib və demək olar ki, idarəolunmaz vəziyyətə salınıb. Məhz pilotların peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı nəticəsində təyyarə Aktau şəhərində qəza enişi edə bilib. Pilotların və bütün ekipaj üzvlərinin fəaliyyəti Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Mənim Sərəncamımla ekipaj üzvləri ilə vida mərasimindən sonra ekipajın üç üzvü - iki pilot və bir bələdçi "Milli Qəhrəman" adına layiq görülüb, iki bələdçi isə 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edilib. Əgər pilotlar peşəkarlıq, qəhrəmanlıq göstərməsəydilər, bu qəzada sağ qalan olmazdı.



Bildiyiniz kimi, Dövlət Komissiyası yaradılıb, komissiya fəaliyyət göstərir. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan prokurorluğu cinayət işi açıb. Cinayət işinin ilkin araşdırması dediyim versiyanı bir daha təsdiqləyir. Bu barədə ilkin məlumat bizdə artıq dekabrın 29-da var idi və Azərbaycan Televiziyasına vida mərasimindən sonra verdiyim müsahibədə mən həm öz fikirlərimi, eyni zamanda, istintaqın bizə verdiyi məlumatı Azərbaycan xalqına çatdırmışdım. Bildirmişdim ki, Azərbaycan ictimaiyyəti istintaqın gedişatı ilə müntəzəm surətdə tanış olacaq.

Prokurorluğun işçi qrupları həm Qrozni, həm Aktau şəhərlərinə ezam edilmişdi, orada operativ işlər görmüşdür. Yenə də deyirəm, ilkin məlumatlar var. Biz təbii olaraq istintaqın başa çatmasından sonra tam məlumatı Azərbaycan ictimaiyyətinə çatdıracağıq. Ancaq dekabrın 29-da bildirdiyim bir məqamı bir daha diqqətinizə çatdırmaq istəyirəm. Qrozni şəhərində "kavyor əməliyyatı", yəni, hava sahəsinin bağlanması əməliyyatı təyyarə yerdən vurulandan sonra elan edilib. Bu, bir daha onu göstərir ki, burada çox ciddi cinayət tərkibli məsələlər var. Adətən hər hansı bir ölkənin hava məkanında təhlükə yaranırsa, dərhal o ölkənin hava məkanı bağlanır. Bu, bütün ölkələrdə var və bunun müxtəlif adları var. Rusiyada buna "kavyor əməliyyatı" deyirlər. Əgər Rusiyanın hava məkanı üçün təhlükə var idisə, dərhal təyyarə kapitanına bu barədə məlumat verilməli idi. Dərhal hava məkanı bağlanmalıydı və təyyarə geri dönməli idi. Onu da bildirməliyəm ki, baş vermiş qəzadan təqribən 10 gün əvvəl oxşar hadisə Qrozni şəhərinin yaxınlığında baş vermişdi. AZAL-a məxsus təyyarə yarı yoldan geri dönmüşdü. Nə üçün bu dəfə təyyarə ekipajına xəbərdarlıq edilməmişdi? Bunu təbii olaraq istintaq göstərəcək. Mən bir daha demək istəyirəm ki, bizdə olan məlumat həqiqətə əsaslanır. Rusiyanın dövlət qurumları tərəfindən bu hadisəni ört-basdır etmək və cəfəng versiyalar üzərində dayanmaq bizdə həm təəccüb, həm təəssüf, həm də haqlı olaraq hiddət hissi doğurur. Günahsız insanlar həlak olublar. Yenə də deyirəm, məhz pilotların və ekipaj üzvlərinin qəhrəmanlığı nəticəsində 30-a yaxın insan bu qəzadan sağ çıxıb, onların bir neçəsi ağır yaralanmışdır. Onu da bildirməliyəm ki, qəza nəticəsində ən çox həlak olan Azərbaycan vətəndaşlarıdır. Eyni zamanda, Rusiya və Qazaxıstan vətəndaşları da həlak olublar. Qırğızıstan vətəndaşları isə yaralanmışdır.

Ekipaj üzvlərinin qəhrəmanlığı haqqında mən vida mərasimi zamanı bildirmişdim. Bir daha demək istəyirəm, bu, doğrudan da böyük fədakarlıqdır. Mən bildirdim, çox güman, pilotlar bilirdilər ki, bu qəzadan sağ çıxa bilməyəcəklər. Onlar təcrübəli pilotlar idi, idarəolunmaz vəziyyətdə olan təyyarəni məhz öz peşəkarlıqları nəticəsində bir yolla məkana yetişdirə bilmişdilər və qəza enişi olsa da, təyyarəni endirə bilmişdilər. Ekipajın digər üzvləri - bələdçilər də soyuqqanlılıq göstərmişlər. Təyyarədə xaosun yaranmaması üçün böyük cəsarət göstərmişlər. Onlar da görürdülər, bilirdilər ki, onları nələr gözləyir. Yəqin, heç ümid etmirdilər ki, bu vəziyyətdən sağ-salamat çıxa bilərlər. Belə vəziyyətdə özünü təmkinlə, soyuqqanlılıqla, cəsarətlə aparmaq, əlbəttə ki, bir daha onların yüksək keyfiyyətlərini göstərir. Xüsusilə nəzərə alsaq ki, bələdçilərin ikisi qadın idi.

"Qara qutu"ların açılması prosesi başlanmışdır. Bizim təkidimizlə bu proses Braziliyada həyata keçirilir. Mən bunu dekabrın 29-da televiziya müsahibəmdə demişdim ki, biz bütün təkliflərə və təkidlərə baxmayaraq Dövlətlərarası Aviasiya Komitəsinin "qara qutu"ları açmasına qəti etiraz etmişdik. Çünki burada obyektivlik sual altına düşə bilərdi. Burada hüquqi dillə desək, maraqlar toqquşması ola bilərdi. Ona görə Azərbaycan, Qazaxıstan və Rusiya nümayəndələrinin iştirakı ilə Braziliyada "qara qutu"ların təhlilinə başlanılmışdır və yəqin ki, yaxın gələcəkdə bu barədə də məlumat veriləcək. Təbii ki, bu günə qədər hələ də açıq olmayan bütün məsələlər də üzə çıxacaq. Gün kimi aydın olan məsələlər ondan ibarətdir ki, təyyarə radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bizə bəlli olan digər məsələ ondan ibarətdir ki, təyyarə yerdən açılan atəş nəticəsində zədələnmişdir. Ancaq nə üçün təyyarə Aktau istiqamətinə göndərilmişdir? Bu barədə bizdə hələ ki, məlumat yoxdur. Bu, yerli dispetçerlər tərəfindən qəbul edilmiş qərar əsasında baş verib, yoxsa pilotlar özləri başa düşərək ki, artıq Rusiyanın hava məkanında radioelektron mübarizə vasitələri onlara eniş etmək üçün imkan verməyəcək və özləri bu seçimi ediblər. Bu barədə hələ ki, bizdə məlumat yoxdur. Təbii ki, "qara qutu"lar açılandan sonra bütün bu məlumatlar olacaq.

Ekipaj üzvlərinin fəaliyyətini nəzərə alaraq, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan dövləti onları yüksək mükafatlarla təltif edib.

Ekipaj üzvlərinin ailələrinə, həmçinin təyyarə qəzasında həlak olanların hamısının ailələrinə bir daha başsağlığı vermək istəyirəm. Məhz ekipaj heyətinin peşəkarlığı, rəşadəti və qəhrəmanlığı sayəsində 30-a yaxın insanın həyatını xilas etmək mümkün oldu.

Yəqin ki, siz də bu faciəvi xəbərin dünya mediasında necə işıqlandırıldığını izləyirsiniz. Bütün digər məsələlərlə yanaşı, ekspertlər məhz pilotların peşəkarlığını və qəhrəmanlığını qeyd edirlər, eyni zamanda, ekipaj heyətinin bütün digər üzvlərinin. Çünki belə bir şəraitdə qəza enişi etmək və Rusiyanın hava məkanında kənar müdaxilə nəticəsində demək olar ki, idarəolunmaz halda olan təyyarəni sahilə qədər çatdırmaq həm peşəkarlıq, həm də qəhrəmanlıq tələb edirdi. Heç kim özünü itirmədi, hərçənd artıq dediyim kimi, ekipaj üzvləri başa düşürdülər ki, sağ qalmaq şansı demək olar, yoxdur. Görünür, pilotlar əmin idilər ki, bu, onların sonuncu reysidir, amma bununla belə, insanları xilas etmək üçün hər şeyi etdilər. Qəhrəmanlıq da bundan ibarətdir. Əgər pilotların nümayiş etdirdikləri qəhrəmanlıq və fədakarlıq meyarları varsa, bunu məhz belə adlandırmaq lazımdır.



Azərbaycan dövləti öz oğul və qızlarının fəaliyyətini, qəhrəmanlığını həmişə layiqincə qiymətləndirib. Bu dəfə də ekipaj heyətinin qəhrəmanlığı layiqincə qiymətləndirildi. Ekipajın üç üzvünə ölümündən sonra "Milli Qəhrəman" yüksək adı verildi, sağ qalan iki ekipaj üzvü də yüksək dövlət mükafatı ilə təltif olundu. Ola bilər ki, yaxınlarını itirən ailələr üçün bu, kiçik bir təsəllidir, amma Azərbaycan dövlətinin öz vətəndaşlarına münasibətinin təzahürüdür. Həlak olanların hər biri təkcə onun yaxınları, ailə üzvləri üçün deyil, həm də Azərbaycan dövləti üçün əzizdir. Biz buna operativ şəkildə reaksiya verdik, elə bir şəraitdə Azərbaycanın hər bir vətəndaşının həyatının bizim üçün çox qiymətli olduğunu bəyan edərək, prinsipial davrandıq və ədalət, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmalarına səbəb olan təqsirkarların cəzalandırılmasını tələb edəcəyik. Əgər Qrozni şəhəri öz ərazisində Rusiyanın hava məkanının bağlanması üzrə vaxtında tədbirlər görsəydi, yerüstü xidmətlərin bütün qaydalarına əməl olunsaydı, həmçinin Rusiya Federasiyasının silahlı qüvvələri və mülki xidmətləri arasında koordinasiya olsaydı, onda bu faciə də baş verməzdi.

Mən hələ ki, cinayət işinin bütün materiallarını açıqlamaq istəmirəm, onun ilkin təhqiqatı və nəticələri mənə məruzə edilib. Amma əminliklə deyə bilərəm ki, Azərbaycan vətəndaşlarının bu qəzada həlak olmasının günahı Rusiya Federasiyası nümayəndələrinin üzərindədir. Biz ədalət tələb edirik, günahkarların cəzalandırılmasını tələb edirik, tam şəffaflıq və insani davranış tələb edirik.

"Qara qutu"ların Braziliyaya göndərilməsi də ondan xəbər verir ki, biz obyektivlik tələb edirik. Mən artıq bu barədə ekipajla vida mərasimindən sonra da demişəm. Əgər biz ilk dəqiqələrdən və ya saatlardan Rusiya Federasiyası rəsmi dairələri tərəfindən bu faciəni obyektiv araşdırmaq cəhdini görsəydik, onda çox güman ki, "qara qutu"ların Dövlətlərarası Aviasiya Komitəsi tərəfindən açılmasının həyata keçirilməsinə razılıq verərdik. Biz onilliklər ərzində bu struktur ilə əməkdaşlıq etmişik və fəal əməkdaşlığımız olub. Bu struktur əsasən keçmiş SSRİ məkanında təyyarə qəzalarının təhqiqatı ilə məşğul olub. Amma biz işin ört-basdır edilməsi, bunu hansısa quşların və ya qaz balonunun adına çıxmaq cəhdini gördükdə, təbii ki, həm mənim, həm də Azərbaycan ictimaiyyətinin bu strukturun təhqiqatının obyektivliyinə ciddi şübhələri yarandı. Hazırda "qara qutu"ların şifrəsinin açılması prosesi gedir. Əminəm ki, yaxın vaxtlarda biz ilkin nəticələri öyrənəcəyik və hər şey öz yerini tutacaq. Baş verən faciənin bütün mənzərəsi də məlum olacaq. Təbii ki, bu, faciənin tam araşdırılması və onun günahkarlarının cəzalandırılması işində mühüm məqam olacaq.

Mən həlak olanların ailə üzvlərini, eləcə də ekipaj üzvlərini bu yüksək mükafatları şəxsən sizə təqdim etmək, sizə bir daha başsağlığı vermək və Azərbaycan dövlətinin hər zaman sizinlə olacağını bəyan etmək üçün dəvət etdim. Mən sizə müraciət və xahiş etmək istəyirəm ki, həyatın istənilən şəraitində sizin arxanızda güclü Azərbaycan dövlətinin dayandığını biləsiniz. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, həmçinin "Azərbaycan Hava Yolları" QSC-yə sizinlə daimi əlaqə saxlamaq və sizi narahat edən məsələləri operativ şəkildə həll etmək tapşırılıb.

Bir daha mənim başsağlığımı qəbul edin və əmin olun ki, biz bu məsələni, bu araşdırmanı sonadək başa çatdıracağıq.

* * *

Sonra təltifolunma mərasimi keçirilib.

# Həmrəylik Vətəni qorumaq niyyətidir



Təqvim adi gün kimi yaşanılır, tarixi gün - tarix kimi. Gün xalqla, millətlə, dövlətlə, dövlətçiliklə bağlıdırsa, tarixləşir, əbədiləşir. Onu vətəndaşlar belə yaşadırlar, belə günlər dövlətin dövlətçilik işığının zərrələrindən olur. Tarixi günləri öz dəyərində qeyd edənlər, qarşılayanlar əsl vətəndaşlardı. Əsl vətəndaşlar tarixi günləri milli mənsubiyyətinin bir hissəsi bilir. Böyük tarixi şəxsiyyət Heydər Əliyev bu məqamı xatırladaraq deyirdi: "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"...

Milli mənsubiyyəti qürur mənbəyi bilmək eyni fikirlilik kimi dəyərləndirilir və yaşadılmalı həmrəylikdir. Ötən əsrin sonlarında bu düşüncə həmrəyliyə, həmrəylik milli-azadlıq hərəkatına çevrildi. Mənəvi qüdrət olan bu böyük həmrəylik - milli-azadlıq hərəkatı Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə nəticələndi, dövlət müstəqilliyimizin bərpası haqqında Konstitusiya Aktı qəbul olundu. Müstəqilliyimizin bərpasından sonra da bu hərəkat, bu hərəkatı yaradan həmrəylik azərbaycançılığın şərti kimi yaşadılmaqdadır.

Azərbaycan SSRİ-nin ilhaqından xilas oldu. Respublikada bütün dövlət təsisatları yaradıldı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev azərbaycançılığı dövlətimizin müstəqilliyinin yaşadılmasının mənəvi stimulu bilirdi. Sovetlər dönəmində də belə idi, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra da belədir - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu bu istiqamətdə də sədaqətlə davam etdirir. Həmrəylik indi daha monolit təşkilatlanma amili kimi yaşadılır. Bunu dövlət siyasətinə Ulu Öndər gətirib. Onun təşəbbüsü böyük ehtiramla əhatələnmişdi. Bu təşəbbüs Azərbaycan naminə böyük xidmət kimi tarixən yaşadılacaq. 33 ildi həmrəyliyi Azərbaycan vətəndaşları da, dünyanın müxtəlif dövlətlərində yaşayan azərbaycanlılar da mənəvi dəyər kimi azərbaycançılığı azərbaycançılıq işığında Azərbaycan dövlətçiliyinə ehtiram bilir. Ulu Öndər bu amili dövlətə - Vətənə sevgini milli məfkurənin tərkib hissələrindən birinə çevirdi.

Həmrəyliyin böyük mənəvi güc, mübarizələr üçün böyük stimul olduğunu yüksək dəyərləndirən tarixi şəxsiyyət Heydər Əliyev dünya azərbaycanlılarını eyni məfkurə ətrafında birləşdirməyi qərara almışdı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəyliyi bayramı kimi qeyd olunması barədə qərar qəbul edildi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul etdi.

Milli dəyərlər min illərlə, yüz illərlə yaradılır, mərhələlərlə formalaşdırılır. Yaradılan, formalaşdırılan belə dəyərlərin bütün azərbaycanlılara, xüsusilə də gənclərə aşılanması cəmiyyətin vəzifə borcuna dönür. Tarixin bütün dönəmlərində belə olub. Belə mənəvi dəyərlər, əslində, xalqın formalaşma prosesi ilə səsləşir. Belə dəyərlərin ən alisi həmişə Vətən sevgisi olub. Dövlətçiliyin ilk vaxtlarında da, sonralar da bütün etik-əxlaqi keyfiyyətlər bu sevgi əsasında formalaşıb.

Milli-mənəvi dəyərlər fərdlikdə, həmrəylik vəhdətdə yaşadılır. Vətən sevgisi fərdi xüsusiyyətdir, Vətən sevgisini yaşadan vasitələrdən biri kimi Vətən naminə həmrəylik fərdləri eyni amal naminə birləşdirən ali mənəvi keyfiyyətdir.

Dövlətçiliyimizlə bağlı həmrəyliyin bir məqamını xatırlayaq: 1920-ci ilin aprelində bolşevik hakimiyyəti Azərbaycan Demokratik Respublikasını ilhaq etmişdi. Xalq Azərbaycan dövlətçiliyini bərpa etmək üçün mübarizə apardı. Təqiblər, sürgünlər xalqın mübarizə əzmini qıra bilmirdi. Bu əzm ötən əsrin sonlarında böyük bir hərəkat yaratdı. Xalq milli-azadlıq hərəkatında dönməzliklə həmrəy oldu. Bu həmrəylik sovetlər imperiyasının dayaqlarını titrətdi. İmperiya xalqın iradəsini sarsıtmaq üçün Bakıda faciə törətdi. Milli-azadlıq hərəkatı xalqın mübarizə əzminin təşkilatlanması idi və son dərəcədə yüksək səviyyədə həmrəyliyə söykənirdi. 20 Yanvar faciəsindən sonra Moskvada Azərbaycanın daimi nümayəndəliyi qarşısında azərbaycanlı olmasıyla həmişə qürur duyan dahi şəxsiyyət Heydər Əliyevin tarixi çıxışı da xalqla həmrəyliyin təzahürü idi. Bu çıxış xalqın dövlətçilik mübarizəsini daha da dönməzləşdirdi. Son 30 ilin tarixi hadisələri təsdiqləyir ki, həmrəylik azərbaycançılığın tərkib hissələrindən biri kimi yaşadılmaqdadır.

Həmrəylik dövlətin də, xalqın da sabahları üçündü. Xalq həmrəy olur - dövlət möhkəmlənir, dövlət möhkəmlənir - xalq qüdrətlənir.

Azərbaycan Ali Sovetinin sədri kimi Heydər Əliyevin 1993-cü il iyunun 18-də respublika televiziyası ilə xalqa müraciəti də xalqın sevdiyi, inandığı siyasi liderin xalqla həmrəyliyi kimi yaşanıldı. Bu müraciət də xalqın dövlət başçısı ilə böyük coşqu səviyyəsində həmrəyliyinin təsdiqi kimi tarixləşdi.

Dünya ictimaiyyəti bir daha əmin oldu ki, Azərbaycanda xalq Prezidenti ilə Vətənin müqəddəsliyi səviyyəsində həmrəydir. Böyük tarixi şəxsiyyətin hadisələr arasında dialektik vəhdəti bütün çalarları ilə dəyərləndirmə, fenomenal səviyyədə ayırd etmə, dövlətçiliklə əlaqələndirmə qabiliyyəti respublikada siyasi sabitliyi təmin etdi, Azərbaycan bu sabitlik hesabına dünyəvi dövlətlərdən biri oldu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev deyirdi: "Dünya azərbaycanlılarının həmrəyliyi gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli-azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Milli-mənəvi dəyərlər cəmiyyətdə, cəmiyyət vasitəsilə cəmiyyətə görə formalaşdırılır. Bu prosesdə cəmiyyətin bütün təbəqələri iştirak edir. Bu baxımdan digər milli-mənəvi dəyərlər kimi, hərbi vətənpərvərliyin də elmi əsaslarla aşılanması hərbi təhsil sisteminin vəzifə borcları sırasındadır. Hərbi təhsilin dünyəvi elmlərə inteqrasiyası da, milli-mənəvi dəyərlərin dünyəvi, bəşəri dəyərlərə inteqrasiyası da bu tezis əsasında aparılır.

Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndər Heydər Əliyev bu amili xatırladaraq demişdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Həmin vaxtdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü həm də milli-mənəvi dəyərlər sisteminin mühüm tərkib hissələrindən biri kimi yaşadılır.

Xalq 2003-cü il oktyabrın 15-də də Azərbaycan naminə həmrəylik göstərdi, Heydər Əliyevin inandığı, etimad göstərdiyi İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu həmrəylik Azərbaycan dövlətçiliyi tarixində mühüm mərhələ oldu.

Son illərin ən gərəkli həmrəyliyi mahiyyət etibarilə Vətən müharibəsi olan İkinci Qarabağ müharibəsində yaşanıldı...

İkinci Qarabağ müharibəsi, mahiyyət etibarilə Vətən müharibəsi bu həmrəyliyin, bu birliyin dönməz davamı, davamın kükrəyişi kimi tarixləşdi. Müharibə başlayan kimi müharibə veteranları, tələbələr, müəllimlər, həkimlər döyüşlərə getmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbələrinə müraciət edirdilər. Bu həmrəylik döyüşən ordunun döyüş əzmini, qələbə ruhunu yüksəldirdi. Uzun illər işğalda qalan ərazilərimizdə düşmən güclü mühəndis-istehkam sədləri qurmuşdu. Azərbaycan Ordusu əks-hücum əməliyyatı ilə düşmənin sədlərini qısa müddətdə darmadağın etdi. Bu, ordunun dövlətə, dövlətçiliyə, Hərbi Anda sədaqətinin ifadəsi, Ali Baş Komandanın döyüş əmrini Zəfərlə tamamlama niyyəti idi.

2020-ci il sentyabrın 27-də əks-hücum kimi başlayan, İkinci Qarabağ müharibəsi kimi davam edən ədalətli müharibənin mahiyyəti Ermənistan silahlı birləşmələrini işğal etdiyi Azərbaycan torpaqlarından çıxarmaq, işğalı sona çatdırmaq idi. Azərbaycan Ordusu Ali Baş Komandanın sərkərdəliyi ilə buna nail oldu. Ordumuz gücü ilə, qüdrəti ilə, yüksək döyüş əzmi ilə, qələbə ruhu ilə düşmənin illərlə yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi istehkam sədlərini darmadağın etdi. Güc, qüdrət, yüksək döyüş və mənəvi-psixoloji hazırlıq ordu-xalq həmrəyliyi ilə daha da dönməzləşdi. Həmrəyliyin Azərbaycanda böyük mənəvi güc olması dünya ictimaiyyətini heyrətləndirdi...

Bu Qələbə Azərbaycan Ordusunun tarixi qələbəsi oldu. Xalqın ordu ilə birliyinə, bu anlamda həmrəyliyinə, xalqın müharibəsində döyüş əzminin, qalibiyyət ruhunun qələbəsinə Zəfər dedik. Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində şanlı və parlaq mərhələ oldu...

Azərbaycan Respublikasının siyasi rəhbərliyinin iradəsinin və Silahlı Qüvvələrinin hərbi gücünün təsdiqi kimi yaşanılan Vətən müharibəsi həmrəyliyin ən ali səviyyəsi kimi tarixləşdi. Həmrəylik müzəffər xalq, müzəffər ordu, müzəffər sərkərdə vəhdətinin qüdrətindədir...

Həmrəylik əqidədir, amaldır. Hərbçilərin əqidəsi, amalı Vətənə sevgidir, dövlətin ərazi bütövlüyünü qorumaqdır. Xalqın inamının, güvəncinin əsgəri olanların əqidəsi də, amalı da həmrəylikdir.

**"Azərbaycan Ordusu"**



## Azərbaycan ilə Mərakeş müdafiə sahəsində hərbi əməkdaşlıq edəcək

Azərbaycan və Mərakeş Krallığı müdafiə sahəsində hərbi əməkdaşlıq edəcəklər.

AZƏRTAC xəbər verir ki, bu, Milli Məclisin dekabrın 27-də keçirilən iclasında müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsində əksini tapıb.

Sənəd 2024-cü il oktyabrın 30-da Rabat şəhərində imzalanıb.

Müzakirələrdən sonra qanun layihəsi təsdiq edilib.

## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Yanvarın 5-i saat 22:00-dan 22:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ və Xanazax istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Zabux və Cağazur yaşayış məntəqələri istiqamətlərindəki mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bildiririk ki, son günlər Ermənistan silahlı qüvvələrinin bölmələri mövqelərimizi bir neçə dəfə atəşə tutub və bütün bu hallar aidiyyəti üzrə qeydiyyata alınıb.

* * *

Yanvarın 6-sı saat 14:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Zabux yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan yenidən atəşə tutub.

# Azərbaycanın Milli Qəhrəmanları Polad Həşimovun və Natiq Qasımovun xatirəsi yad edilib



*Yanvarın 2-də Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimovun doğum günündə Müdafiə Nazirliyinin bir qrup zabit heyəti, Vətən müharibəsi iştirakçıları və Milli Qəhrəmanın ailə üzvləri onun məzarını ziyarət ediblər.*

2 yanvar 1975-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olan Polad Həşimov Sumqayıt şəhərində orta təhsil alıb. Sonra o, indiki Heydər Əliyev adına Hərbi İnstituta daxil olub və bu xüsusi təyinatlı təhsil müəssisəsini müvəffəqiyyətlə bitirib.

Polad Həşimov döyüş bölgələrində Vətənimizin müdafiəsi uğrunda ona həvalə edilmiş əmr və tapşırıqları layiqincə yerinə yetirərək "general-mayor" ali hərbi rütbəsinədək yüksəlib.



2016-cı ilin Aprel döyüşlərində Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2016-cı il tarixli Sərəncamına əsasən, Polad Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. 2019-cu il iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilmişdir.

General-mayor Polad Həşimov 14 iyul 2020-ci il tarixində Tovuz rayonunun qarşısında yerləşən düşmənin hücum cəhdlərinin və təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə ölümündən sonra general-mayor P.Həşimov "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.



Anım mərasimində Müdafiə Nazirliyinin rəhbərliyi adından Milli Qəhrəmanın məzarı üzərinə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla anılıb.

* * *

Yanvarın 2-də Birinci Qarabağ müharibəsində torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun doğum günü münasibətilə "N" hərbi hissəsində anım tədbiri keçirilib.

Tədbir xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edərək, Natiq Qasımovun keçdiyi döyüş yolundan, göstərdiyi şücaət və igidliklərdən danışıblar. Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atan qəhrəmanımızın vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğu diqqətə çatdırılıb.

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2024-cü il tarixli Sərəncamı ilə Natiq Qasımov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Tədbirin sonunda Azərbaycanın Milli Qəhrəmanı N.Qasımovun keçdiyi döyüş yolundan və şücaətlərindən bəhs edən film nümayiş etdirilib.

**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Müşkünaz ananın yurd həsrəti, tək oğlu, qüruru...

Bu dəfə yolumuzu Naxçıvan Muxtar Respublikasının iri yaşayış məntəqələrindən olan Şərur rayonundan saldıq. Şərur zəhmətkeş insanları ilə yanaşı, həm də tarixən igid, cəsur, hərb peşəsinə könül verən insanları ilə tanınır. 1990-cı illərdə Sədərəkin müdafiəsində şərurlular da iştirak edib, torpağı son nəfəslərinədək qoruyublar. Bu yolda şəhadətə ucalmış igidlərin doğulduqları kəndlərdə büstləri ucaldılıb, xatirələri əziz tutulub. Azərbaycanın ilk Milli Qəhrəmanlarından olan Məhərrəm Seyidov da Şərur elinin yetirməsidir. Rayonun Günnüt kəndinin müdafiəsi zamanı canı bahasına 18 nəfər döyüş yoldaşını mühasirədən xilas edən və düşmən əlinə keçməsin deyə sonuncu gülləsini özünə sıxan "Əlibaba" ləqəbli igid Asəf Rəhimovun da döyüş yolu, şücaəti yetişən gənc nəslə örnək olub. Vətən torpaqlarının azadlığı uğrunda döyüşənlərdən biri də Sərxan Salahovdur.




Sərxan Həsənqulu oğlu Salahov 1991-ci il martın 1-də Şərur rayonunun Ələkli kəndində anadan olub. Ailədə iki bacının bir qardaşı olan Sərxan məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Burada hərb peşəsinə sevgisi artan Sərxan Salahovun yolu bir neçə ildən sonra yenidən hərblə kəsişib. Qarşısına qoyduğu əsas məqsəd peşəkar hərbçi kimi formalaşmaq, Vətənə sədaqətlə xidmət etmək olub.

Anası Müşkünaz xanım bizi Sərxanın şəkilləri, şəxsi əşyaları ilə bəzədilmiş otağına aparır. Deyir ziyarətə gələnlər, Sərxanın keçdiyi bu şərəfli yolla tanış olanlar çox olur. "Xalqımız qədirbiləndir, şəhidini unutmur. Bu, bizim üçün həm qürur, həm də təsəllidir. Sərxan ailəmizin tək oğul övladı olub. Hərbi peşəni seçəndə də etiraz etmədik. Özü sevərək bu yolu seçdi. Biz də onun seçiminə hörmətlə yanaşdıq. Sən demə, oğlum tək bir evin yox, bütün elin tanıyacağı igid olacaqdı. Mən oğlumla fəxr edirəm. Oktyabrın 16-sı onunla son görüşümüz oldu. Səhər erkən evdən çıxdı. Arxasınca su atdım, sağsalamat gəlməsi üçün dua etdim (həmin gündən mən artıq heç kimin arxasınca su atmıram). Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etdi. Arada zəng edir, hal-əhval tuturduq. Xocavənddə qolundan qəlpə yarası alır. Hospitala yerləşdirilir. Orada olarkən xatirə şəkli çəkdirir və bu onun sonuncu şəkli olur. Bir gün sonra yenidən döyüşə qatılır. Noyabrın 1-i telefonla danışdıq. Sən demə, bu son danışığımız olacaqdı. Səhəri gün şəhadətə qovuşub balam. Biz ayın 5-i xəbər tutduq. Ayın 6-sı Naxçıvan Hava Limanında Sərxanın nəşini tək biz yox, yüzlərlə insan qarşıladı, həm də alqışlarla. Şərur Şəhidlər xiyabanında həmkəndlisi şəhid leytenant Rauf Qurbanovla yanaşı dəfn olundu".

Sərxandan bizə iki qız övladı - Məryəm və Fatimə yadigar qalıb. 2021-ci ildə ailə Şərur şəhərində 3 otaqlı mənzillə təmin olunub. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sərxan Salahov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Ələkli kəndinin 6 övladı 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlib: İlkin Rzayev, Elton Qənbərli, Rauf Qurbanov, Adil İbrahimli, İbrahim Sadiqli, Sərxan Salahov. Yalnız Sərxanın deyil, kəndin yetirməsi olan bu igidlərin də fotoları evin bir guşəsində yer alıb. Bu balaca kəndin adamları şəhidləri ilə qürur duyurlar.

2024-cü il sentyabrın 27-si Anım Günündə Ələkli kənd cəmiyyətinin təşəbbüsü və rayon rəhbərliyinin dəstəyi ilə igid övladlarımıza göstərilən ehtiramın əlaməti olaraq Şəhidlər məscidi istifadəyə verilib.

Şəhidlər qəhrəmanlıq nümunəsi göstərdilər. Bizim də borcumuz onların irsini təbliğ etməkdir. Bundan sonra da



Sərxanlar, Eltonlar, Adillər, Raufla, İbrahimlər, İlkinlər yetişsin deyə...

Müşkünaz xanımla sağollaşanda bildirdi ki, onun Qərbi azərbaycanlı olduğunu mütləq qeyd edim: "Mənfur ermənilər zamanla bizim torpaqlarımıza göz dikiblər və bu mənim aldığım ikinci yaradır. Biz əslən Dərələyəz mahalının Gülüdüzü kəndindənik. 22 yaşımadək o torpaqlarda böyümüşəm. 1988-ci ildə məlum hadisələr zamanı ailəlikcə Şərura gəldik. Öz ata yurduma həsrətəm. Oğlum Sərxan Qarabağ həsrətini bitirənlərdən oldu. Düşünürəm ki, biz Qərbi azərbaycanlıların da yurd həsrəti bir gün bitəcək və mən o torpaqlara gedəcəyəm. Buna həm o torpağın övladı kimi, həm də şəhid anası kimi haqqım var!"

**Ruhiyyə RƏSULOVA**
**"Şərq qapısı" qəzetinin məsul katibi**

# Otuz bir il əvvəl uğurla yekunlaşan Horadiz əməliyyatı düşməni dəyirmi masa arxasında oturmağa məcbur edib





Yanvarın 5-də Azərbaycan Silahlı Qüvvələrinin uğurlu Horadiz əməliyyatından 31 il ötür.

1993-cü ilin dekabrından başlayan və 1994-cü il yanvarın 6-dək davam edən, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı nəticəsində qısa müddətdə 21 min hektar ərazi, Füzuli rayonunun Araz boyu 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib. Düşmən ağır itkilər verərək və cəsədlərini döyüş meydanında qoyaraq geri çəkilib. 1994-cü il yanvarın 5-də Azərbaycan Ordusunun əsgərləri Horadizə daxil olaraq Azərbaycan Bayrağını ucaldıblar. Horadiz əməliyyatında misilsiz qəhrəmanlıq nümunələri göstərdiklərinə görə 8 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bu uğurlu əməliyyat Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə əməliyyatın iştirakçısı olmuş “N” hərbi hissəsinin keçmiş döyüşçüləri yanvarın 5-də Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri qoyulub.

Sonra briqadanın keçmiş döyüşçüləri Şəhidlər xiyabanında döyüş yoldaşlarının məzarlarını ziyarət ediblər. Həmçinin İkinci Şəhidlər xiyabanında da uyuyan qəhrəmanların da məzarları ziyarət olunub.

Horadiz əməliyyatının iştirakçıları - ikinci batalyonun komandiri Zahir Həsənov, ehtiyatda olan kapitan, batareya komandiri Bərəhman Zairov, ikinci qrup Qarabağ əlili Habil Məmmədov və həmin əməliyyatın iştirakçısı olmuş şəhid Qasim Məmmədhəsənovun atası Bilal Məmmədhəsənov mediaya müsahibələrində əməliyyatın keçirilməsindən, Azərbaycan Ordusunun ozamankı dövr üçün qazandığı bu nailiyyətin əhəmiyyətindən danışıblar. Bildirilib ki, 11 min əsgər və zabit həmin əməliyyatın iştirakçısı olub. Əməliyyat zamanı Azərbaycan Silahlı Qüvvələrinin qazandığı qələbə düşməni dəyirmi masa arxasına gətirib. Nəticədə atəşkəs elan olunub.

# Şəhid hərbi pilot Rəşad Atakişiyevin xatirəsi yad edilib





Yanvarın 7-də İkinci Fəxri xiyabanda Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi pilotu olmuş şəhid polkovnik-leytenant Rəşad Atakişiyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, HHQ-nin bir qrup hərbi qulluqçusunun, şəhidin ailə üzvlərinin, həmçinin media nümayəndələrinin iştirak etdiyi tədbirdə hərbi pilotumuzun məzarı ziyarət olunub, üzərinə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Mərasimdə general-mayor Həsən Əlövsədov çıxış edərək polkovnik-leytenant R.Atakişiyevin şərəfli xidmət yolundan, vətənpərvərliyindən və peşəkarlığından danışıb, onun gənc pilotlar üçün örnək olduğunu qeyd edib.

Bildirilib ki, polkovnik-leytenant R.Atakişiyevin xatirəsi hər zaman xalqımızın yaddaşında yaşayacaq, fəxrlə anılacaqdır.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan Ordusunun bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlər Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Milli birlik, Azərbaycana məhəbbət, mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirən həmrəylik gününün yaranma tarixi, əhəmiyyəti çıxış edənlər tərəfindən tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd olunub ki, 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında dekabrın 31-i dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

Tədbirlərdə müasir Azərbaycan Respublikasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin müstəsna xidmətlərindən danışılıb.

Tədbirlər çərçivəsində hərbi qulluqçular üçün sənədli filmlər nümayiş etdirilib, yerli icra hakimiyyəti orqanları, dövlət və qeyri-hökumət təşkilatları, veteranlar, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə şəxsi heyətlə görüşlər, mədəni-kütləvi, vətənpərvərlik tədbirləri, viktorinalar keçirilib. Həmçinin "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlanıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivlərinin təqdim etdikləri konsert proqramları maraqla izlənilib.

*Disput*

# "Bu qələbə bizimlə əbədi olacaq"

Ölkəmizin 20 faiz ərazisini işğal etmiş Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmirdi, yeni ərazilər işğal etmək niyyəti ilə regiondakı mövcud status-kvonu saxlamağa çalışırdı. Xarici havadarlarından siyasi və hərbi dəstək alan Ermənistan sülh danışıqlarından müxtəlif bəhanələrlə yayınır, təxribatlar törədirdi. Azərbaycan Ordusunun bölmələri bu təxribatların qarşısını qətiyyətlə alırdı. Belə genişmiqyaslı təxribatlardan biri də 2020-ci il sentyabrın 27-də oldu. Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhə boyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Nəticədə mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar oldu. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəydi. Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusu bütün cəbhə boyu əks-hücum əməliyyatına başladı. Əks-hücum İkinci Qarabağ müharibəsinin - Azərbaycanın ədalətli müharibəsinin başlanğıcı oldu. Ordu hissələrimiz düşmənin möhkəmləndirdiyi mühəndis-istehkam sədlərini dağıtdı, ilkin qələbələr qazandı, qısa müddət ərzində onlarla yaşayış məntəqəsi işğaldan azad edildi...

"N" hərbi hissəsində "Bu qələbə bizimlə əbədi olacaq" mövzusunda keçirilən disputda bunlar xatırlandı. Əsgərlər maraqla dinləyirdilər. Bu maraq başlanğıcın nəhayətinə olan maraqdır. Əsgərlər bilirlər ki, mövzuya müvafiq olaraq Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərdən danışılacaq, onun istər dövlətimiz, istərsə də bəşərilik üçün əhəmiyyətindən söz açılacaq və böyük niyyətlərlə dövlətçiliyimizin daha da möhkəmlənəcəyinə inamla tamamlanacaqdır. Bu əminlik hər birinin düşüncələrini disputun mövzusu ətrafında səfərbər etdi...

Leytenant Emin Dərvişov Vətən müharibəsinin döyüşlərindən söz açaraq bildirir ki, bu döyüşlər Azərbaycanın apardığı ədalətli müharibənin döyüşləri idi. İkinci Qarabağ müharibəsi başlayanda minlərlə tələbə, müharibə veteranı, həkim, mühəndis, ... döyüşlərə getmək üçün müraciət etdi. Qismən səfərbərlik elan edilməsinə baxmayaraq xalqımızın ruhu döyüşənlərin yanında idi. Bunun sayəsində döyüşən ordunun döyüş ruhu, qələbə inamı bundan daha da yüksəlirdi. İkinci Qarabağ müharibəsində iki qardaşların, ata ilə oğulun döyüşlərdə olduğunu, onların da cəsarətlə döyüşdüyünü xatırlatmaq istərdim. İman və Bəhrəm Məmmədzadə qardaşları döyüşlərdə şəhid oldular. Bu gün onların döyüş yolu bu günün əsgərləri üçün vətənsevərlik örnəyidir.

Əsgər Nicat Məmmədov İkinci Qarabağ müharibəsini xalqın müharibəsi adlandıraraq qeyd edir ki, bu müharibədə analar döyüşən ordu



hissələrinə nələr göndərmirdi? Müharibə iştirakçısı olan qonşumuz deyirdi ki, bizə göndərilən sovqatları ana azuqəsi bilirdik. İyirmi cüt əlcək də göndərmişdilər. İçində bir məktub da vardı. Yazmışdılar ki, bu əlcəkləri dörd qonşu hörüb sizə göndəririk ki, əlləriniz üşüməsin, barmaqlarınız tətikdə titrəməsin, daha cəsarətlə döyüşün, qələbələr qazanın, işğalı sona çatdırın, qəhrəman oğullarımız. Bu məktub hamımızın döyüş əzmini kükrətdi. İcazə versəydilər, məktub oxunan kimi döyüşlərə atılardıq. Mən həm öz adımdan, həm də əsgər yoldaşlarımın adından deyirəm: Müharibədə iştirak etsəydik, o məktubu oxusaydıq, biz də həmin an döyüşlərə can atardıq.

Əsgərin qətiyyətlə dedikləri digər əsgərlərin də düşüncələrini disputun mövzusuna yönəldir. Hamısı döyüşlər haqqında eşitdiklərindən, televiziyada gördüklərindən danışmaq istəyir. Hamısı Zəfər parkının açılışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi bir fikrin qürurunu elə burada da yaşamaq istəyir: "Bu qələbə bizimlə əbədi olacaq!". Bu qələbə Azərbaycanın ərazilərinin işğaldan azad edilməsini təmin etdi, bu tarixi Zəfər işğalın sonunun başlanğıcı oldu. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat, əslində, Azərbaycanın apardığı ədalətli müharibənin sonu olmalı idi. Ancaq Ermənistan tərəfi bəyanatın şərtlərinə əməl etmədi. Tarixi Zəfərdən sonra Qarabağda qalmış Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri müxtəlif miqyaslı təxribatlar törətməkdə davam edirdi.

Fikrimizi əsgər Raul Quliyev davam etdirir:

- Azərbaycan Ordusu bu təxribatların qarşısını alsa da, niyyəti birdəfəlik ləğv etmək üçün 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatına başladı. Bir gündən də az davam edən əməliyyatda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri təslim oldular. Bununla da Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Əsgər Mirşahin Əlizadə əsgər yoldaşının sözünə qüvvət kimi deyir ki, xalqımız 8 noyabr qələbəsini də, sonrakı hərbi əməliyyatlarda qazanılan qələbələri də Azərbaycan Ordusunun qüdrəti bildi. Bu qüdrət Azərbaycan dövlətinin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Biz İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanmış əsgərlərin davamçılarıyıq. Dövlətimizin ərazi bütövlüyünü və suverenliyini onlar bərpa etdi, biz də ərazi bütövlüyümüzü və suverenliyimizi böyük məsuliyyətlə qoruyuruq, müdafiə edirik.

Bakıda açılan Zəfər parkı qazanılan Zəfərə, Zəfəri qazananlara, döyüşlərdə şəhid olanlara ehtiramdır. Hərbi xidmətə gələndə Zəfər parkına gedə bilmədik. Tərxis ediləndən sonra Bakıda görüşməyi, hərbi xidmət xatirələrini yaşamağı qərara almışıq. Vaxtını da müəyyənləşdirmişik. Onda Zəfər parkına da gedəcəyik. Biz tarixi Zəfərlə qürurlandığımız kimi, Zəfər parkı ilə də qürurlanacağıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bu qələbə bizimlə əbədi olacaq" kəlamını orada da qürurla deyəcəyik.

Əsgərlər bu fikirləri bəyənir, müəyyən mənada, hərbi xidmətdən sonra mülki həyatda döyüş növbətçiliyi bilirlər.

Leytenant Emin Dərvişov Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışından yaddaşında qalan bir məqamı da xatırladır: "Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik". Bu kəlamlar yaradılması haqqında Sərəncam imzalanmış Zəfər parkına qürur paradımızda səslənən ehtiram kimi dinlənilir. Əsgər Kənan Şahbazlı Zəfər yolunun necə yaradılmasını xatırladır:

- Ordu hissələrimiz meşələrdən keçən cığırları genişləndirməklə, hündür yerlərini alçaltmaq, hündür-alçaq yerlərini hərbi texnikaların gedişinə uyğunlaşdırmaq, yola döndərməklə...

Əsgərlərdən biri əsgər yoldaşının fikrini tamamlayır:

- ... həm də çox qısa müddət ərzində...

Əsgər Nicat Məmmədov:

- Şuşaya, Qələbəyə yaxınlaşmışdı. Şuşa uğrunda döyüşlərin başlanğıcı Zəfər yolu olub.

Düşünürəm ki, Şuşa uğrunda döyüşlərin ilk iştirakçıları Zəfər yolunu yaradanlar və o yoldan keçib döyüşə gedənlər olublar, - əsgərlərdən biri belə deyir. Əsgərlərin baxışlarında razılıq görünür, yəni, bu fikir gözəldir, bəyənilir.

Disput fikirlərin biri-birini tamamlamasıdı, bir fikrin digər fikir üçün başlanğıc olmasıdır. Əsgərlərin mövzu haqqında səsləndirdikləri fikirlər də belə fikirlərdir. Hər fikirdə Zəfərin qüruru var, hər fikir Azərbaycan əsgərinin Vətənə sevgisinin döyüşdə təsdiqini ifadə edir. Bu fikirlər həm də Azərbaycan Ordusunun qüdrətinin qürurudur: Biz belə bir ordunun əsgərləriyik!

Zəfər parkının açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İkinci Qarabağ müharibəsində Azərbaycan əsgərinin şücaətindən, bu şücaətin döyüş əzmini qələbəyə yönəltdiyindən, döyüşlərdən də söz açaraq dedi: "Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir. Biz düşməni kapitulyasiya aktının imzalanmasına məcbur etdik. Həmin düşmən hələ 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" demişdi. Biz onu məcbur etdik ki, bu gün "Qarabağ Azərbaycandır" deyir və bundan sonra da deyəcək, öz xoşu ilə yox". Bu fikirlər tarixi Zəfərin qazanılmasında Azərbaycan əsgərinin, Azərbaycan Ordusunun qələbə əzminin, qələbə ruhunun ifadəsi kimi tarixləşdi. Bu Zəfər Azərbaycanın dövlətçilik tarixində həmişə qürurla xatırlanacaq, zaman-zaman deyiləcək ki, "Bu qələbə bizimlə əbədi olacaq!"

Bu mövzuda disputu Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığının səviyyəsi də hesab edə bilərik. Aprel döyüşlərini, Günnüt zəfərini, Tovuz döyüşlərini, 44 günlük Vətən müharibəsini, 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ilə nəticələnən uğurlu antiterror əməliyyatını, igidlikləri, bu döyüşləri, qəhrəmanlıqları, şəhidləri, möhtəşəm qələbəmizdə əməyi olan hər kəsi əbədiyyən yaşadacaq Zəfər parkına belə sevgisi Azərbaycan əsgərinin Vətənə sevgisinin ifadəsidir...

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## Diplomat: Fransa rəhbərliyi Afrika xalqlarına hörmət etməyi öyrənməlidir

*Fransa Prezidenti Emmanuel Makronun ənənəvi səfirlər konfransındakı bəyanatı Afrika ölkələrində narazılıq yaradıb.*

AZƏRTAC "Figaro"ya istinadla xəbər verir ki, Makron çıxışında "Fransa 2013-cü ildən Sahil regionunda terrorla qarşı silahlı müdaxilə edib. Lakin Afrika rəhbərləri Parisə "sağ ol" deməyi unudublar. Amma bunun da vaxtı yetişəcək" - deyə iddia edib.

Makronun açıqlaması Afrika ölkələrində ciddi narazılıq yaradıb. Çadın Xarici İşlər Nazirliyi bu bəyanatı pisləyib. Nazir Abderahman Kulamallah bildirib ki, "Fransa rəhbərləri Afrika xalqlarına hörmət etməyi öyrənməlidir. Fransa heç zaman afrikalı əsgərlərin İkinci Dünya müharibəsində qurban getməsini tanımayıb. (Qitədə) son 60 illik mövcudluğu zamanı Fransanın rolu öz strateji maraqları ilə məhdudlaşıb, Çad xalqının inkişafına heç bir ciddi töhfəsi olmayıb".

Afrikalı diplomat eyni zamanda vurğulayıb ki, çadlıların Fransa xalqı ilə heç bir problemi yoxdur.

Seneqalın Baş naziri Usman Sonko isə sosial media hesablarında Makronun bəyanatının "tamamilə yanlış" olduğunu bildirib: "Afrikanın təhlükəsizliyini və suverenliyini təmin etmək üçün Fransanın nə gücü, nə də legitimliyi mövcuddur. Tam əksinə, Fransa, Liviya kimi bəzi Afrika ölkələrində sabitliyin pozulmasına töhfə verdi ki, bu da Sahil regionunda təhlükəsizlik baxımından fəlakətlə nəticələndi".

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikasının müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş fəaliyyətlər. Hərbi hissə və birləşmələrin müasir dövrdə əsas vəzifələri.

**Suallar:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş fəaliyyətləri.**

**2. Hərbi hissə və birləşmələrin müasir dövrdə əsas vəzifələri.**

### Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin və ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş fəaliyyətləri

Hər bir dövlətin gücünü müəyyən edən əsas amillərdən biri onun hərbi potensialı və müdafiə qabiliyyətidir. Azərbaycan Respublikası beynəlxalq aləmdə güclü bir iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern bir ordusunun olması ilə də diqqəti cəlb edir. Ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyin əsas təminatçısıdır. Sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birinə sıx bağlıdır.

Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer alması təsadüfi deyil. Bunu təmin edən amil xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu nizami və güclü ordu quruculuğunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Müstəqil ölkəmizin güclü, qüdrətli ordusunun memarı olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik illərində ordu quruculuğu prosesinin dövrün çağırışlarına müvafiq olaraq ardıcıllıqla həyata keçirilməsi Azərbaycanın hərbi qüdrətinin artırılması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev müstəqil dövlət quruculuğunun bütün sahələri kimi, ordu quruculuğu sahəsində də uğurla həyata keçirilən siyasət nəticəsində Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə layiqli yer tutub. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhva-ruhiyyənin sağlamlaşdırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının onun qarşısında duran vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaradıb. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Pakistan və digər ölkələrə göndərilirlər. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Azərbaycan Respublikasının müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Bu illərdə dövlət başçısının xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətinin həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan, ilk növbədə, ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli, məqsədyönlü iş aparılmışdır. Azərbaycanın iqtisadi-maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması və ən müasir tələblər səviyyəsinə çatdırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir. 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər, müharibə dövründən sonra qələbə ilə yekunlaşan digər əməliyyatlar və sentyabr ayında cəmi bir günə uğurla başa çatdırdığı antiterror əməliyyatı ordumuzun gücünü bir daha bütün dünyaya sübut etdi.

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir.

Silahlı Qüvvələrin gücü təkcə ölkənin hərbi qüdrəti demək deyil, bu, eyni zamanda, dövlətin beynəlxalq siyasət və təhlükəsizlik arenasında mövqeyinin qorunması baxımından əhəmiyyətli amildir. Azərbaycan Respublikası dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycan Respublikasına Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır. 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP 29) 29-cu sessiyasının Azərbaycanda keçirilməsi bütün dünya ölkələrinin ölkəmizə böyük hörmət və etimadının göstəricisidir. 14 günlük tədbir zamanı dünya biosferinin çirklənməsi, içməli suyun qıtlığı, tez-tez baş verən quraqlıq və ərzaq təhlükəsizliyində artan risklər kimi ciddi ətraf mühitin çirklənməsi çağırışları ilə yanaşı, bütün dünyaya sülh mesajı verildi, Azərbaycanın Qələbəsi tanıdıldı. Mədəniyyətimiz, ictimai həyatımız və tarixi gerçəkliklər ortaya qoyuldu.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Bu gün ən müasir silah-sursat, daha çox yüksək dəqiqliyə, böyük dağıdıcı qüvvəyə malik olan silahlar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün işlərlə yanaşı, ölkəmizdə hərbi sənaye də çox sürətlə inkişaf edir. Məhz uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində müdafiə təyinatlı məmulatların istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biri olmaqla yanaşı, ordumuzun potensialını da gücləndirir. Görülən işlərin nəticəsidir ki, Azərbaycan Ordusu quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən təhdidlərdən müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ordumuz, həmçinin dünyanın ən güclü orduları sırasında yer alır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsində başlıca rol oynayan, Azərbaycanın hərb salnaməsinin qızıl səhifəsini yazan rəşadətli Azərbaycan Ordusu döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Silahlı Qüvvələrimizin ötən son 22 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

### Hərbi hissə və birləşmələrin əsas vəzifələri

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycan Respublikasının regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərdə hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Azərbaycan Ordusu ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün bərpası uğrunda apardığı uğurlu əməliyyatlar bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə səylərimizi davam etdirərək, hər an dövlətimizin müstəqilliyini qorumağa hazır olmalıyıq. Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin hərbi hissələrə ardıcıl səfərlər etməsi və hərbi qulluqçularla görüşməsidir. Bu görüşlərdə hərbi qulluqçulara sonsuz mübarizə əzmi aşılayan Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu olmalıdır. Yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə, terror əməliyyatına digər təhdidlərə layiqli cavab verməyə qadir olmağı tələb edir. Bunun üçün isə Azərbaycan Ordusunun qarşısında 2025-ci tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur:

- 2024-cü tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunun yüksək səviyyədə saxlanılması;
- şəxsi heyətin Azərbaycan xalqına, dövlətinə və Prezidentinə sadiq olmaq, respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyinin müdafiəsi üçün şəxsi məsuliyyət, hərbi yoldaşlıq, dostluq və qardaşlıq, hərbi hissəsinin döyüş ənənələrinə hörmət, hərbi borcu şüurlu surətdə yerinə yetirmək və döyüş bayrağına sədaqət ruhunda tərbiyə edilməsi;
- Azərbaycan Ordusunun nüfuzunun artırılması, hərbi qulluqçularda yüksək vətənpərvərlik təfəkkürünün, şəxsi heyətin azərbaycançılıq, Vətənə, Hərbi Anda və xalqına sədaqət ruhunda tərbiyə edilməsi, hərbi qulluqçularda Azərbaycan xalqının tarixinə, milli adət və ənənələrinə dərin hörmətlə yanaşma tərzinin, Konstitusiyaya və vətəndaşlıq borcunun yerinə yetirilməsinə, yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin formalaşdırılması.

Bu gün Azərbaycan Ordusu qarşısında respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyin müdafiəsini ayıq-sayıq təmin etmək vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan Ordusunun inkişafını yeni bir səviyyəyə yüksəldəcək.

**Qeyd:** ***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2024-cü tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandağı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2025-ci tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.***

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Las-Veqasda ilin ən böyük "CES 2025" texnoloji sərgisi keçiriləcək




2025-ci il yanvarın 7-dən 10-dək Las-Veqasda ilin ən böyük "CES 2025" texnologiya sərgisi keçiriləcək.

AZƏRTAC tədbirin saytına istinadla xəbər verir ki, "CES 2025" sərgisində 160-dan çox ölkədən qonaqlar iştirak edəcək. Keçən il sərgiyə 138 mindən çox ziyarətçi və 4300-dən çox iştirakçı cəlb edilib. Hazırki sərgidə daha çox iştirakçı gözlənilir ki, bu da innovasiyalara və texnoloji irəliləyişlərə artan maraqdan xəbər verir.

"CES 2025"in əsas istiqamətləri süni intellekt, robototexnika, daşınan qurğular, rəqəmsal səhiyyə, nəqliyyat texnologiyaları, kibertəhlükəsizlik, eləcə də gözəllik və moda sahəsində texnologiyalardır. Aparıcı şirkətlərin milyonlarla insanın gündəlik həyatını dəyişdirə biləcək ən son məhsullarını təqdim etmələri gözlənilir.

Məsələn "NVIDIA" şirkəti "GeForce RTX 5000" seriyalı yeni nəsil qrafik kartları, həmçinin süni intellekt və robototexnika sahəsində nailiyyətlər də daxil olmaqla, ən son məhsul və texnologiyalarının bir sıra təqdimatlarını planlaşdırır.

"Intel", həmçinin "CES 2025" sərgisində öz çıxışını bəyan edib. Şirkətin "Arrow Lake" ailəsindən olan yeni prosessorlarını və "Core Ultra" çipləri bazasında hazırlanan cihazları təqdim edəcəyi gözlənilir.

İstehlak Texnologiyaları Assosiasiyasının (CTA) prezidenti və baş icraçı direktoru Hari Şapironun sözlərinə görə sərgidə innovasiyaların gələcəyini formalaşdıran tendensiyaları müzakirə edən 300-dən çox konfrans sessiyası keçiriləcək. "CES 2025" gələcək illər üçün texnologiya gündəmini müəyyən etmək üçün bir platforma olacaq.




"CES" sərgisi ənənəvi olaraq dünyanın aparıcı brendlərinin öz nailiyyətlərini nümayiş etdirdiyi, yeni tərəfdaşlıqlar qurduğu və fikir mübadiləsi apardığı, texnologiyaları inkişaf etdirdiyi və bütün dünyada həyat keyfiyyətinin yaxşılaşdığı məkandır.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Sarıqamış qəhrəmanlarının xatirəsi anılıb



Türkiyənin şərqində yerləşən Qars vilayətində Sarıqamış döyüşü qəhrəmanlarının xatirəsinə həsr olunmuş ənənəvi yürüş keçirilib.

Türkiyənin müxtəlif bölgələrindən minlərlə insan şiddətli şaxtalara baxmayaraq, 110 il əvvəl baş vermiş tarixi döyüş yerinə toplaşıb. Yürüş iştirakçıları əllərində Türkiyə bayraqları mənfi 15 dərəcə soyuqda "Sizin ayaq iziniz bu torpaqlarda qalır" şüarı ilə Allahuəkbər dağ silsiləsindən Qızılbuçuk yüksəkliyinə qədər 4,5 km məsafəni qət ediblər.

Aksiyada gənclər və idman naziri Osman Aşkın Bak, milli müdafiə naziri Yaşar Güler, parlament, siyasi partiyaların nümayəndələri, Qars valisi Ziya Polat, hərbçilər, Türkiyənin müxtəlif bölgələrindən gələn sadə insanlar iştirak ediblər. Sarıqamış döyüşü iştirakçılarının xatirəsinə dualar oxunub.

Xatırladaq ki, Birinci Dünya müharibəsi dövründə Ənvər Paşanın komandanlığı ilə Osmanlı ordusu Şərqi Anadolunun rus ordusu tərəfindən ələ keçirdiyi əraziləri azad etmək üçün hücuma keçib. Döyüş bölgəsində minlərlə Türkiyə övladı soyuqdan donaraq həlak olub.

## Burkina-Fasoda xüsusi təyinatlıların sayı artırılır



Burkina-Fasoda ordu yenidən qurulur.

Bu barədə keçid dövrünün prezidenti İbrahim Traore bildirib.

Dövlət başçısı bildirib ki, 2025-ci ildə 5 yeni çevik müdaxilə batalyonu yaradılacaq. Bununla da belə batalyonların sayı 28-ə çatdırılacaq.

Hökumətdəki mənbələrin məlumatına görə, keçid dövrü rəhbərliyi ölkənin suverenliyi və ərazi bütövlüyünə qarşı bütün təhdidlərin qarşısını almaq üçün ordunu müasirləşdirir. Müstəqillik əldə etdikdən sonra fransız modeli əsasında qurulmuş ordu indi yeni sistemlə təşkil edilir.

## Şimali Koreya ortamənzilli ballistik raket buraxıb



Şimali Koreya şərq suları istiqamətində ortamənzilli ballistik raket buraxıb.

Bu barədə Cənubi Koreya silahlı qüvvələri açıqlama yayıb. Bu, Koreya Xalq Demokratik Respublikasının (KXDR) 2025-ci ildə ilk raket sınağıdır. Raketin buraxılışı yerli vaxtla saat 12:00 radələrində baş tutub.

Raket buraxılışından sonra Cənubi Koreyanın silahlı qüvvələri müşahidələrini gücləndirib.

## Ukrayna ordusu Kurskda bir neçə istiqamətdə əks-hücuma başlayıb



Ukrayna müdafiə qüvvələri Kursk bölgəsində bir neçə istiqamətdə əks-hücuma keçib.

Bu barədə Ukrayna Dezinformasiyaya Qarşı Mübarizə Mərkəzinin rəhbəri Andrey Kovalenko özünün teleqram səhifəsində bildirib.

Ukrayna Prezident Ofisi Aparatının rəhbəri Andrey Yermak da teleqram səhifəsində Ukrayna qüvvələrinin Rusiya ərazisindəki uğurlarından yazıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Türkiyənin antik tarixi - Likya, Kariya, Pisidia



Türkiyənin qərbi Aralıq dənizinin Təkə yarımadasında yerləşən tarixi məkan Likya özünəməxsusluğu, heyrətamiz memarlığı ilə Anadolunun ən inkişaf etmiş sivilizasiyalarındandır.

23 şəhəri əhatə edən Likya birliyi hətta müasir demokratik sistemlərə də təsir göstərib. Likya yolu Xanthos, Myra, Olympos, Aperlai və Simena və digər şəhərlərdən keçir. Likya yolu, həmçinin Ölü dəniz, Kəpənəklər vadisi, Kabak körfəzi, Kalkan, Kaş, Olimp dağı, Gelidonya Fənəri, Çıralı və Göynük Kanyonu kimi təbiət möcüzələrinə malikdir.



Türkiyənin 800 kilometr uzunluğunda ən uzun piyada yolu olan Kariya da məhz Likya sərhədində yerləşir. Badam və zeytun bağları ilə tanınan Datça qədim Knidos şəhəri və yarımadanın ucundakı Dəvəboynu mayakı ilə məşhurdur.

Müasir Antalyanın cənubundakı mənzərəli dağlar arasında yerləşən Pisidia bölgəsi, 380 kilometrlik məsafəni əhatə edən Hetit yolu tarixiliyi, gözəl təbiət mənzərələri ilə diqqət çəkir. Adı UNESCO-nun Dünya İrs Siyahısına salınan Hattuşa 30 mindən çox gil lövhəyə malikdir. İlk yazılı sülh müqaviləsi olan Kadeş sülh müqaviləsi bu lövhələrdən ən məşhurudur.

Kütahya, Afyon və Əskişəhərin yerləşdiyi Dağlı Frigiya bölgəsi də 2015-ci ildən UNESCO-nun Dünya İrsinin Müvəqqəti Siyahısındadır. Afyonun qaya evləri, məzarları və kilsəsi ilə məşhur olan Ayazini kəndi tarixi yerlərdən biridir. Digər maraqlı yerlər arasında qayaya oyulmuş Avdalas qalası və Əmrə gölü, eləcə də Kütahyanın Aizonai antik şəhəri də var. Frigiyanın yaşayış məntəqəsi olan Yazılıkaya da maraqlı yerlərdən biridir.



**"Azərbaycan Ordusu"**

Yahyayev Nizami Çöllü oğluna verilmiş MV № 039003 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qurbanlı Xanəhməd Zakir oğluna verilmiş MV № 105309 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Muradov Mehdi Etibar oğluna verilmiş MV № 021255 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
Ceyhun CƏFƏRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 2
Nüsxə 3663